

# ÖMƏR FAİQ NEMANZADƏ-150

## Metodik vəsait

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# Ömər Faiq Nemanzadə – 150

**metodik vəsait**

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait*

**BAKI – 2022**

**Tərtibçi**: **A.Məmmədova**

**İxtisas redaktoru**: **K.M.Tahirov,**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Ömər Faiq Nemanzadə – 150:** metodik vəsait /tərt. ed. A.Məmmədova; red. K.Tahirov.– Bakı, 2022.– 35 s.

**© Azərbaycan Milli Kitabxanası, 2022**

# Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ilin dekabr ayında Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 ili tamam olur.

Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixinə parlaq səhifələr yazmış və son dərəcə mürəkkəb şəraitdə onun inkişafına istiqamət verərək keyfiyyətcə yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış maarifpərvər ziyalılardandır. Ədəbi-mədəni həyatda mühüm hadisəyə çevrilmiş "Qeyrət" mətbəəsinin və Yaxın Şərq ölkələri ədəbiyyatında demokratik meyillərin güclənməsinə qüvvətli təsir göstərmiş məşhur "Molla Nəsrəddin" jurnalının yaradılması ədibin gərgin və səmərəli fəaliyyətinin ayrılmaz tərkib hissələridir. Ana dilinə sevgini vətənə məhəbbətin ən vacib şərti sayan geniş erudisiyalı, fədakar qələm sahibi doğma xalqının mədəni dirçəlişi, istiqlalı və xoşbəxt gələcəyi naminə bilik və bacarığını əsirgəmədən əzmlə mübarizə aparmışdır. Ümumxalq əhəmiyyəti daşıyan bütün taleyüklü məsələlərin zamanın qabaqcıl ideyaları fonunda daim azərbaycançılıq məfkurəsi cəbhəsindən işıqlandırılması Ömər Faiq Nemanzadənin milli ideyalarla zəngin və dərin siyasi-ictimai məzmuna malik publisistik irsinin başlıca leytmotivini təşkil etmişdir.

Dövrün vətənpərvər ruhlu bir çox şəxsiyyətləri kimi Ömər Faiq Nemanzadə də totalitar sovet rejiminin 1930-cu illər repressiyasının qurbanlarından olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan milli mətbuatının inkişafına dəyərli töhfələr vermiş görkəmli maarifçi-ziyalı Ömər Faiq

Nemanzadənin anadan olmasının 150-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Ömər Faiq Nemanzadənin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 oktyabr 2022-ci il*

## Tərtibçidən

Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixinə parlaq səhifələr yazmış və son dərəcə mürəkkəb şəraitdə onun inkişafına istiqamət verərək keyfiyyətcə yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış maarifpərvər ziyalılardandır.

Təqdim olunan metodik vəsaitdə Ömər Faiq Nemanzadənin həyat və fəaliyyəti haqqında qısa məlumat, görkəmli publisist, ictimai xadimin irsinin kitabxanalarda geniş təbliği məqsədilə müxtəlif kütləvi tədbirlərin həyata keçirilməsinə dair metodik tövsiyələr verilmişdir. Sonda isə Ömər Faiqə aid edilən imzalar və təxəllüslər, qəzet ve jurnallardakı yazıları öz əksini tapmışdır.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı şəh., Xaqani küç. 57
**E-mail:**anl.metodikixidmet@yandex.ru
http://www.millikitabxana.az/onlineservices/methodical-services
**URL:** www.millikitabxana.az

# Ömər Faiq Nemanzadənin həyat və fəaliyyəti haqqında

Ömər Faiq Nemanzadə 24 dekabr 1872-ci ildə Gürcüstanın məshəti türklərinin (o illərdə axalsıx türkləri) yaşadığı Axalsıx qəzasında, kəndli ailəsində anadan olmuşdur. O, bir neçə il molla məktəbinə getsə də, dinə maraq göstərməmiş və yeni açılmış rus məktəbinə daxil olmuşdur. 1882-ci ildə anasının təkidi ilə İstanbulda "Fateh" məktəbində təhsil almışdır. Lakin o, dinin əsaslarını öyrənməkdən, cansıxıcı tədris üsulundan imtina etmiş, nisbətən dünyəvi elmlərə meylli olan "Darüş-şəfəq" adlı yetimlər məktəbində təhsilini davam etdirmişdir.

1891-ci ildə İstanbulda təhsilini başa vuraraq Qalata poçtxanasında işləməyə başlamışdır. Bu vaxtdan etibarən Ö.F.Nemanzadə inqilabçı gənclərə qoşulmuş, bir müddət onlarla əməkdaşlıq etmiş, onların gizli fəaliyyətinin üstü açılanda çətinliklə qaçıb vətənə gəlmişdir.

Ö.F.Nemanzadə o zamanlar cavan, enerjili, işıqlı ideyalara malik, formalaşmış ziyalı idi. O, fəaliyyətinin ilk illərində Azərbaycanın demokratik ruhlu vətənpərvər oğullarına qoşularaq 1892-ci ildən ömrünün sonuna qədər bütün qüvvəsini, bilik və bacarığını xalqının azadlığı uğrunda mübarizəyə yönəltmişdir.

1894-cü ildə bir müddət Şəkidə təzə açılmış ilk üsuli-cədid məktəbində dünyəvi elmlərdən dərs demiş, şəhərin ictimai və mədəni həyatında fəal iştirak etmişdir. Eyni zamanda yeni milli məktəbin açılması, şagirdlərin yeni ruhda tərbiyə olunması sahəsində də səmərəli fəaliyyət göstərmişdir. Ömər Faiq camaatı yeniliyə alışdırmaq, onları qəflət yuxusundan oyatmaq üçün mədəni tədbirlərin təşkilinə teatr tamaşalarından başlamışdır. Xüsusən M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının tamaşası böyük müvəffəqiyyət qazanmışdır. O, daha

sonra fəaliyyətini Şamaxı, Bakı və Gəncə şəhərlərində davam etdirmişdir.

Dövrünün ən parlaq şəxsiyyəti, müasir Azərbaycan ədəbiyyatının təsisçisi və klassiki Cəlil Məmmədquluzadə ilə Ömər Faiqin tanışlığı 1903-cü ildə Azərbaycan dilində nəşr olunan yeganə mətbuat orqanında, yəni "Şərqi-Rus" qəzetinin redaksiyasında baş tutmuşdur. Qəzeti dostu və havadarı C.Məmmədquluzadə idarə edəndə Ömər Faiq köhnəliyə, dini təəssübkeşliyə, "ikiüzlü, pula satılan" ziyalılara qarşı çıxır, milli dərdləri və onların aradan qaldırılması yollarını öz dünyagörüşü dairəsində göstərməyə cəhd edirdi. 1904-cü ilin sentyabr ayında "Şərqi-Rus"da dərc etdirdiyi *"Biz də vaxta görə çalışaq"* adlı silsilə məqalələrində milli dərdlərdən, milli ehtiyaclardan ürək yanğısı ilə danışırdı. Bu zamanlar Ö.F.Nemanzadə maarifçi kimi çıxış edir, maarifçi görüşlərini yayırdı. Lakin bu maarifçi mövqeyin özündə bir cəsarət, bir mübarizlik, faydalı iş görmək əzmi də var idi ki, bu cəhətlər onun həmin qəzetdə imzalı və imzasız dərc olunmuş bütün məqalə, şeir və hekayələrində hiss olunur və müasirlərinə ciddi təsir edirdi.

1905-ci ilin yanvarında qəzet borca düşüb bağlanır və belə bir dövrdə Ö.Faiqlə C.Məmmədquluzadənin birgə fəaliyyətinin yeni dövrü başlayır. Onlar məhz ***"Molla Nəsrəddin"*** kimi jurnalı yaratmağa və dövrün əsas demokratik qüvvələrini ətrafına toplayıb mövcud ictimai quruluşa qarşı çıxmağa imkan əldə edirlər.

Yeni mətbəə ***"Qeyrət"*** adı ilə 1905-ci ilin mart ayında fəaliyyətə başlayır. Bununla da Azəzrbaycanın ədəbi-mədəni həyatında yeni bir mərhələ başlayır. Molla Nəsrəddinçilər adı ilə məşhur olan fikir cərəyanı məhz "Qeyrət" mətbəəsində ilk ideya mübarizəsinə qədəm qoyur. Burada müxtəlif elmi və bədii kitablar, mübarizəyə, tərəqqiyə çağırış ruhlu əsərlər çap olunur. İlk kitablardan birini Ömər Faiqin özü yaratmışdır. ***"Nəşri-asara dəvət"*** adlanan kitab tezliklə çap olunaraq

camaata pulsuz paylanmışdır. Burada müəllif inqilabi-demokratik fikirlərini irəli sürmüşdür. “Qeyrət” mətbəəsi həqiqətən də Azərbaycan xalqının ictimai şüurunun oyanmasına kömək məqsədilə açılmış ilk mədəni müəssisə hesab olunur. Mətbəə geniş fəaliyyətə başlayandan sonra Ömər Faiq Cəlil Məmmədquluzadə ilə birlikdə yeni mətbuat orqanı yaratmaq fikrinə düşmüş və 1906-cı ildə məşhur ***“Molla Nəsrəddin”*** jurnalının nəşrinə nail olmuşdurlar.

Jurnalın rəsmi redaktoru C.Məmmədquluzadə, əsas yazarı isə Ömər Faiq idi. Bundan sonra Ömər Faiqin publisistik fəaliyyətinin çiçəklənmə dövrü başlayır. O, redaksiyada Mirzə Cəlilin əvəzsiz köməkçisinə çevrilir. “Molla Nəsrəddin” juralının birinci nömrəsinin bütün yükü, ağırlığı Mirzə Cəlillə Ömər Faiqin üzərinə düşmüşdür. Onlar materialların hamısını özləri hazırlamış, şəkillərin mövzularını özləri vermiş, teleqraf xəbərlərini, tapmacaları birlikdə tərtib etmişdirlər.

Ömər Faiq 40-dan çox gizli imzalardan istifadə edirdi. Bunların əksəriyyəti onun publisistik fəaliyyətinin ən geniş və sərbəst meydanı olan “Molla Nəsrəddin” səhifələrindədir. Lakin indiyə qədər onlar seçilmədiyindən bir hissəsi ya Cəlil Məmmədquluzadənin əsərlərinə daxil edilmiş, ya da müəllifi müəyyənləşdirilməmişdir. İndi tam inamla demək olar ki, məşhur *“Erməni və müsəlman övrətləri”, ”Qafqaz Şeyxülislamına iki dənə açıq məktub”* kimi mühüm əhəmiyyətə malik yazılar Ömər Faiqindir.

Ömər Faiq həm karikaturalarda, həm də yazılarda ictimai, sinfi ziddiyyətlərə xüsusi fikir verirdi. O, ***“Lağlağı”, “Mozalan”, “Dərdmənd”, “Çəhrəçi xala”, “Dəli”, “Çoban”, “Ömər Faiq Nemanzadə”, “Faiq Nemanzadə”, “Heyrani, “Məşrutəçi”*** və s. imzalarla külli miqdarda felyeton yazmışdır. Bunların hamısında onun mübarizə ruhu hiss olunmaqdadır. Onun jurnalda bir sıra kəskin siyasi

çıxışları hakim dairələrdə kin, qəzəb oyadırdısa, kütlə arasında, demokratik ziyalılar içərisində ona qarşı geniş rəğbət yaradırdı.

Ədibin ***"Bilməli xəbərlər", "Cavablar", "Fatma xala", "Xortdana məktub", "Məktub", "Məktəb", "Qorxuram", "Axır çərşənbə", "Sirkə", "Nə deyim", "Təşəkkür", "Bir neçə günlüyə"*** və digər felyetonları qadın azadlığı, təhsilsizlik, cahillik, dini gerilik, sinfi ziddiyyət kimi ictimai-sosial mövzularda yazılmışdır. Onun "Molla Nəsrəddin"də dərc etdirdiyi bu felyetonları məzmunu, mövzu genişliyi ilə seçilir, dərin mənalılığı ilə insanları düşünməyə vadar edir.

Ömər Faiqin publisistik fəaliyyəti təkcə "Şərqi-Rus" və "Molla Nəsrəddin" jurnalları ilə məhdudlaşmırdı. Dövrünün ən nüfuzlu jurnallarında onun imzası tez-tez görünürdü. Bu məqalələrdə o, bir sıra ictimai-siyasi və milli məsələləri aydın şəkildə şərh edir, özünün demokratik fikirlərini yayırdı. "Şərqi-Rus"dan sonra ilk tutarlı çıxışlarından biri 1906-cı ildə Əbuturab Axundoğlunun ***"Həyat"*** qəzetində dərc etdirdiyi *"Bizə hansı elmlər lazımdır?"* məqaləsi ilə əlaqədar yazılmışdır. Əbuturab bu məqalədə hər kəsi inandırmağa çalışırdı ki, müsəlmanlara dünyəvi elmlər yox, ancaq şəriət elmləri lazımdır. C.Məmmədquluzadə, Ə.Hüseynzadə və Ö.F.Nemanzadənin ona yazdığı cavablar axundun məqaləsi ilə bir yerdə 1907-ci ildə "Qeyrət" mətbəəsində kitab şəklində çap olunaraq "Molla Nəsrəddin"ə əlavə kimi abunəçilərə göndərilmişdir.

Əbuturab dünyəvi elmləri oxuyanları yoldan azmış, pozğun, millətinə düşmən hesab etdiyi halda, Ömər Faiq göstərirdi ki, o adam ki, dünya elmlərinə maraq göstərir, ona yiyələnir, bəşəriyyət üçün ondan istifadə edir o, ən kamil insandır. Bu illərdə Ömər Faiq başqa mollanəsrəddinçilər kimi mübarizə yolunu bir qədər də konkretləşdirərək fikirlərini nəzəri cəhətdən əsaslandırırdı.

Ömər Faiq xalqı təkcə mübarizəyə çağırmaqla kifayətlənmir, siyasi mübarizənin qanunauyğunluqlarını və bunun nəticəsində əldə edilə biləcək nailiyyətləri də görür və doğru şəkildə şərh edirdi.

Ömər Faiqin publisitik fəaliyyətindəki əsas mənəvi etik prinsiplərdən biri də vətənpərvərlik, vətənə, xalqa bağlılıq, xalqın mənəvi sərvətlərinə qayğılı münasibət idi. O, milləti sevməyin birinci əlamətini onun dilini sevməkdə görürdü. Buna görə də milli dil problemi onun yaradıcılığında başlıca yer tuturdu.

Ömər Faiq yazılarında bütüb ərəb və fars sölərinə qarşı çıxmırdı. O, başa düşürdü ki, belə bir şey mümkün deyil. Hər bir dilin daxili təbiəti elədir ki, o, başqa dillərin hesabına zənginləşməli və inkişaf etməlidir. O, sadə yazmağı, hamının başa düşəcəyi dildə danışmağı millətə xidmətin əsas formalarından biri hesab edirdi.

Bu illərdə Ömər Faiq siyasi cəhətdən yetkin, mübariz bir publisist idi. O, bir çox siyasi toqquşmalarda şəxsən iştirak edir, siyasi təbliğat aparırdı. Gürcüstan hökumətinin rəhbərləri Ömər Faiqi aradan götürmək üçün müxtəlif fitnə və fəsadlardan istifadə edirdilər. Onlar 1918-ci ildə kəndlilər arasında siyasi təbliğat üstündə qocaman jurnalisti üç dəfə həbs etmiş, Tiflisin mərkəzi qazamatında saxlamış, olmazın əzablar vermiş, yalnız ictimaiyyətin, xüsusən Gəncə və Tiflis ziyalılarının mətbu etirazından sonra həbsdən buraxmağa məcbur olmuşdurlar.

Ö.F.Nemanzadə 1920-ci ildə *“Zəhmətkeşlərin gözü”* jurnalının redaktoru, daha sonra *“Yeni fikir”* qəzetinin redaksiya heyətinin üzvü, 1921-1922-ci illərdə Gürcüstan inqilab komitəsinin üzvü olmuş və komitənin nəzdində yaradılmış müsəlman sektorunun sədri işləmişdir. 1920-ci illərin axırlarında Gəncə Kənd Təsərrüfatı Texnikumunun direktoru vəzifəsində işləmişdir. O, xalq maarifinin yenidən qurulmasında, yeni dərsliklərin və dərs vəsaitlərinin yaradılmasında fəal iştirak etmişdir.

1927-ci ildə Ö.F.Nemanzdənin xəstəliyi və xidmətləri nəzərə alınaraq ona ömürlük təqaüd kəsilmişdir. Lakin, o, yenə də boş dayanmır, ara-sıra mətbuatda məqalələrlə çıxış edir, xalq maarifinin inkişafına yardım göstərir, yeni dərsliklərin hazırlanmasında iştirak edirdi.

Faiq əfəndi ömrünün son illərini xatirələri üzərində gərgin işə sərf etmiş, XIX əsrin 80-ci illərindən başlayaraq 1906-cı ilə qədər olan dövrü əhatə edə bilmişdir. Buna baxmayaraq ***“Xatirələrim”*** iki əsrin (XIX-XX) qovuşuğunda baş vermiş bir sıra mühüm hadisələrin salnaməsi kimi oxuculara qiymətli məlumat verir, bəzi naməlum hadisələrin açılmasına kömək edir. Təəsüf ki, Ömər Faiq xatirələrini bitirməyə macal tapmamış, 1937-ci ilin yayında Axalsixdə öz ata yurdunda dincələrkən, iyulun 16-da rayon prokuroru Odabaşyanın sərəncamı ilə həbs olunmuş, üç ay sonra oktyabrın 10-da Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığının nəzdindəki “üçlüyün” qərarı ilə güllələnmişdir. 1958-ci ildə Gürcüstan SSR Ali Məhkəməsi ona bəraət vermişdir.

Ömər Faiq Nemanzadənin misilsiz xidmətləri xalqımız, dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Haqqında bir sıra əsərlər yazılmış, film (“İşığımız sönməyəcək”, 2003) çəkilmişdir. Hazırda Bakının mərkəzi küçələrinin biri Ömər Faiq Nemanzadənin adını daşıyır. Ömər Faiq Nemanzadənin yaradıcılığına və fəaliyyətinə həsr olunmuş Azərbaycan, rus, ingilis və türk dillərində olan xatirə-məlumat saytı (*https://omarfaig.info/*) yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 oktyabr 2022-ci il tarixində Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.

## Ömər Faiq Nemanzadə irsinin kitabxanalarda təbliği

Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadə irsinin kitabxanalarda təbliği böyük əhəmiyyətə malikdir. Ona görə də, ədibin 150 illik yubileyi ilə bağlı əvvəlcədən hazırlanmış tədbirlər planı əsasında il ərzində kitabxanalarda elektron resursların, ənənəvi və virtual sərgilərin yaradılması, yeni kitabların təqdimatı, elektron məlumat bazalarının yaradılması, daycest kimi informasiya xarakterli nəşrlərin hazırlanması və s. məqsədəuyğun hesab edilir.

**Elektron məlumat bazası.** Hazırda kitabxanaların texniki vasitələrlə təchizatını və istifadəçilərin daha çox elektron resurslara olan marağını nəzərə alsaq ictimai xadim Ömər Faiq Nemanzadənin 150 illik yubileyi ilə bağlı **elektron məlumat bazası** hazırlamaq kitabxana istifadəçiləri üçün olduqca böyük əhəmiyyət kəsb edə bilər.

**Nümunə:**

**“Ömər Faiq Nemanzadə – 150”**

*Elektron məlumat bazası*

- ✓ Rəsmi sənədlər
- ✓ Həyat və yaradıcılığı haqqında
- ✓ Əsərləri:
- - *Kitabları*
- - *Dövri mətbuat və məcmuələrdə çap olunan məqalələri*
- ✓ Haqqında:
- - *Kitablar*
- - *Məqalələr*
- ✓ “Molla Nəsrəddin” jurnalı
- ✓ Seçilmiş fikirləri

- ✓ Görkəmli şəxslər Ömər Faiq Nemanzadə haqqında
- ✓ Xatirəsinin əbədiləşdirilməsi
- ✓ Filmoqrafiya
- ✓ Fotoqalereya
- ✓ Videoqalereya

Elektron məlumat bazasını hazırlayan zaman buraya Ö.F.Nemanzadə ilə əlaqədar digər bölmələr də əlavə etmək olar. Məlumat bazası regionlarda yaşayan geniş istifadəçi kütləsinin görkəmli publisistin yaradıcılığı ilə bağlı müxtəlif sənədlərlə yaxından tanış olmasına, bu resurslardan rahat istifadə etməsinə köməklik edəcəkdir. Bununla yanaşı, yaradılan baza kitabxanaya gələ bilməyən fiziki qüsurlu istifadəçilər üçün də böyük əhəmiyyətə malik olacaqdır.

Elektron məlumat bazasına mövzu ilə əlaqədar ədəbiyyat daxil edərkən **Milli Kitabxananın** *(https://www.millikitabxana.az/)* və digər kitabxanaların elektron resurslarından yararlanmaq olar. Məlumat bazası vaxtaşırı yenilənməli, yeni məlumatlar daxil edilməli və eləcə də kitabxananın təşkil etdiyi bir sıra tədbirlərdə məlumat bazasından istifadə edilməlidir.

Nümunə üçün Milli Kitabxananın Ö.F.Nemanzadə haqqında hazırladığı elektron məlumat bazasına da müraciət etmək olar. *(http://anl.az/el/emb/O.F.Nemanzde/index.html)*

**Virtual Sərgi.** Son zamanlar yalnız gənclər deyil, əhalinin əksər hissəsinin internetdən və sosial şəbəkələrdən fəal istifadə etdiklərini nəzərə alaraq, yubiley ərəfəsində kitabxanalarda Ömər Faiq Nemanzadənin yaradıcılığı haqqında daha çox istifadəçini məlumatlandırmaq, hətta kitabxanaya gəlmək imkanı olmayan şəxsləri onun yaradıcılığı ilə yaxından tanış etmək məqsədilə **virtual kitab sərgilərinin** təşkili xüsusi əhəmiyyət kəsb edir. Slaydlar şəklində

hazırlanan sərgidə Ömər Faiqin əsərləri (Azərbaycan və digər dillərdə), haqqında yazılan əsərlər, qəzet və jurnal məqalələri, audiovizual sənədləri və s. nümayiş etdirmək olar. Sərgini həm kitabxananın saytı, həm də sosial şəbəkələrdə geniş istifadəçi kütləsinə təqdim etmək tövsiyə olunur. Qeyd etmək lazımdır ki, belə sərgilərin təşkili sosial şəbəkə istifadəçiləri üçün də olduqca əhəmiyyətlidir.

Virtual kitab sərgisini hazırlayan zaman kitabxanaçı öz mövcud kitabxana fondları ilə yanaşı, **Milli Kitabxananın** *(https://www.millikitabxana.az/)* fondunda və elektron kitabxanasında olan resurslardan da yararlana bilər.

Nümunə üçün Milli Kitabxananın Ö.F.Nemanzadə haqqında hazırladığı virtual sərgiyə də müraciət etmək olar. *(http://anl.az/el/vsb/Omer_Faiq_Nemanzade_150/index.htm)*

Virtual sərgilərdə kitabları üz qabığı ilə birlikdə və altında qısa yazılı annotasiya verməklə, əgər mümkünsə, kitabın onlayn versiyası və ya linkini yerləşdirməklə daxil etmək məqsədəuyğun hesab edilir.

**Nümunə:**

**Slayd 1:** Sərginin başlığı

**"Görkəmli publisist və ictimai xadim Ömər Faiq Nemanzadə"**

**Slayd 2:** *Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 3 oktyabr 2022-ci il //Azərbaycan.- 2022.- 4 oktyabr.- S.2.*

*http://www.anl.az/down/meqale/azerbaycan/2022/oktyabr/817829.htm*

**Slayd 3. Ömər Faiq Nemanzadənin əsərləri**

*Seçilmiş əsərləri /Ömər Faiq Nemanzadə; tərt. ed., ön sözün və izahların müəl. Ş.Qurbanov.- Bakı: Şərq-Qərb, 2006.- 352 s.*

*http://web.anl.az/el/n/nof_se.pdf*

*Əsərləri /Ömər Faiq Nemanzadə; tərt. ed. Ş.Qurbanov, S.Rzayev; red. K.Məmmədov.- Bakı: Yazıçı, 1983.- 152 s.*

*http://web.anl.az/el/Kitab/177253.pdf*

**Slayd 4: Ömər Faiq Nemanzadə haqqında yazılan məqalələr**

**Azərbaycan dilində**

*http://www.anl.az/down/meqale/medeniyyet/2022/oktyabr/817740(meqale).pdf*

*http://www.anl.az/down/meqale/sherq/2022/oktyabr/817460.htm*

**Rus dilində**

*http://www.anl.az/down/meqale/ejednevniye_novosti/2022/sentyabr/811707.htm*

**Slayd 5: Ömər Faiq Nemanzadənin seçilmiş fikirləri**

*"Döyüşdə qohumlarına yardım etməyə tələsməyən şəxsə, şübhəsiz ki, insan deyilməz. Möhtac və zəif olanların əzabını qurtara bilməyən şəxs vicdanını asanlaşdırmayacaq. Kasıbların ehtiyaclarını ödəmək üçün ciddi addımlar atmayan şəxs mədəniyyətə, bilik zirvəsinə doğru bir addım atmayıb."*

***

*“Ədəbiyyatı olmayan bir millətin, dilsin insanə oxşuyacağını söyləmək üçün dəlil, təfsilə hacət yox sanıram. Çünki ən böyük şahid keçmiş hallar, indiki vüquatlardır.”*

***

*“Xülasə, indiyə qədər min dürlü təcrübələr ilə isbat edilmiş bir həqiqətdir ki, hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar.”*

**Slayd 7:** Kitabı oxumaq və ya daha yaxından tanış olmaq üçün kitabxananın ünvanı, əlaqə telefonları, saytı və e-mail ünvanı verilir.

**Telekonfranslar.** Azərbaycan milli mətbuatının böyük nümayəndəsi Ömər Faiq Nemanzadənin 150 illik yubileyi münasibətilə kitabxanalarda təşkil olunacaq digər tədbirlərdən biri də **telekonfransların** keçirilməsidir. Telekonfrans əsasən (telefon vasitəsilə, audiokonfrans, çat, poçt vasitəsilə konfrans, videokonfrans və s.) Windows əməliyyat sistemində Microsoft Net Meeting proqramı vasitəsilə həyata keçirilir. Bu proqram uzaq məsafədə səs və video əlaqələrinin təşkili, eləcə də internet vasitəsilə onlayn görüş və konfransların keçirilməsi üçün nəzərdə tutulmuşdur. Telekonfransın əsas üstünlüklərindən biri də iştirakçı tərkibi və sayına, həmçinin, telekonfransın müddətinə heç bir məhdudiyyətin qoyulmamasındadır.

Ömər Faiqin yubileyi ilə əlaqədar kitabxanalar *“Nemanzadə irsində mütaliə məsələsi”, “Ömər Faiq yaradıcılığında milli maarifçilik”, “Ömər Faiqin fikir dünyası” və s.* mövzularda regionlararası, region daxilində, eyni zamanda MKS daxilində kitabxana filialları öz aralarında telekonfrans keçirə bilərlər. Hazırlıq müddətində kitabxanaçı konfransda çıxış edəcək şəxsləri müəyyən etməli, onlarla sıx əlaqə saxlamalı, proqram tərtib etməli və iştirakçıların onlayn qeydiyyatdan keçə bilmələri üçün veb ünvan

müəyyən etməlidir. Ən sonda sosial şəbəkələrdə, kitabxananın saytında konfransla bağlı elan və ya anons yerləşdirilməlidir.

**Buktreyler.** Ö.F.Nemanzadənin yubileyi ilə əlaqədar təşkil olunacaq tədbirlər sırasında **buktreylerin** hazırlanması da məqsədəuyğun hesab olunur. Buktreyler *(ing. "booktrailer")* hər hansı bir kitab haqqında bədii formada bəhs edən kiçik videoçarxdır. Bu cür çarxların hazırlanmasında əsas məqsəd vizual vasitələrin köməyi ilə təqdim olunan kitablara diqqətin cəlb edilməsidir. 3 dəqiqədən artıq olmayan bu "mini film"i peşəkar kamera və ya smartfon telefonlara çəkmək olar. Öncə "Power-point", "Camtasia Studio" kimi proqramlardan istifadə etməklə təqdimat yaradılır, mətn, musiqi yazılır, daha sonra montaj edilir. Belə çarxları kitabxananın saytında və sosial şəbəkələrdə də yerləşdirə bilərsiniz. Buktreylerlərin hazırlanması üçün kitabın, janrın, süjet xəttinin seçilməsi, video formatın təyin edilməsi, buktreylerin proqramda yazılması və montajı, saytda yerləşdirilməsi lazımdır. Bunun üçün mövzu ilə bağlı kitablar öncədən seçilməli, müəllif, kitabın sərlövhəsi, kitabdan seçilmiş qısa mətnlər, sitatlar, kitabın üz qabığı və xülasə, həmçinin ssenari hazırlanmalı və müvafiq proqramda yığılmalıdır. Yubiley çərçivəsində Nemanzadənin həyatı və yaradıcılığı haqqında kitabları, yazdığı əsərləri vizuallaşdırmaq maraqlı və faydalı hesab oluna bilər.

**Viktorinalar.** Görkəmli ədibin 150 illik yubileyi çərçivəsində kitabxanalarda əsasən yuxarı sinif şagirdlərinin Ömər Faiq yaradıcılığı haqqında biliklərini yoxlamaq üçün onların iştirakı ilə **test şəklində viktorinaların** keçirilməsi tövsiyə olunur.

**Nümunə:**

**1.Ömər Faiq Nemanzadə neçənci ildə və harada anadan olmuşdur?**

*A) 1880-ci ildə, Bakı şəhərində*

*B) 1872-ci ildə Gürcüstanın Axalsıx qəzasında*

***(doğru cavab B)***

*C) 1870-ci illdə, Beyləqan şəhərində*

*D)1887-ci ildə, Şuşanın yaxınlığındakı Ağcabədi kəndində*

**2.Ö.F.Nemanzadə yaradıcılığında hansı mövzu əsas yer tutur?**

*A) Xeyir və şər qüvvələrin mübarizəsi*

*B) Təriqət ideyalarının təbliği*

*C) Milli dil problemi* ***(doğru cavab C)***

*D) Məhəbbət lirikası*

**3.Ö.F.Nemanzadənin "Qafqazdan İstanbula xatirələr" adlı əsərində nədən bəhs edilir?**

*A) Milli maarifçilik ideologiyasının təbliğindən*

*B) Qafqazın, o cümlədən, Osmanlı imperiyasının ictimai-siyasi həyatında baş vermiş bir sıra mühüm hadisələrdən* ***(doğru cavab B)***

*C) Azərbaycanın mətbəə və mətbuat tarixindən*

*D) Tədris və tərbiyə məsələlərinin vəhdətindən*

**4.Ö.F.Nemanzadənin hansı felyetonunda təhsil problemlərindən bəhs edilir?**

*A) “Xortdana məktub”*

*B) “Axır çərşənbə”*

*C) “Fatma xala”*

*D) “Məktəb”* ***(doğru cavab D)***

**5. Bu imzalardan hansı Ö.F.Nemanzadəyə aiddir?**

*A) Naməyus* ***(doğru cavab A)***

*B) Düzəxi*

*C) Eloğlu*

*D) Zəhlətökən*

Viktorinanın təşkili üçün kitabxana həm öz veb saytında, həmçinin sosial şəbəkələrdə elan yerləşdirməli, daha sonra iştirakçıları, münsiflər heyətini, viktorinanın şərtlərini müəyyən etməli, yeri və tarixi barədə məlumat verməlidir. Suallara düzgün cavab verən məktəblilərə ədibin yaradıcılığı ilə bağlı hər hansı bir kitabı hədiyyə edə bilərsiniz. Müsabiqəni təşkil edən zaman həmçinin sərgi hazırlamaq, sənədli film nümayiş etdirmək, tövsiyə ədəbiyyat siyahıları hazırlamaq da məqsədəuyğun hesab edilir.

**Dəyirmi masa.** Mərkəzi Kitabxana Heydər Əliyev Mərkəzi, rayon məktəbləri və ya bir neçə kitabxana filialı ilə birlikdə *“Mətbuat fədaisi Ömər Faiq Nemanzadə”, “Ömər Faiq Nemanzadə və Azərbaycançılıq ideyası”, “Nemanzadə yaradıcılığında felyeton”* və başqa mövzularda **dəyirmi masalar** təşkil edə bilər. Dəyirmi masa təşkil edən zaman Ö.F.Nemanzadə ədəbi irsinin tədqiqatçılarını, ədəbiyyatşünasları, regional mədəniyyət idarələrindən, müxtəlif təşkilatlardan nümayəndələri, rayon ziyalılarını dəvət etmək lazımdır.

İstifadəçiləri publisistin həyat və yaradıcılığı, ictimai fəaliyyəti ilə daha yaxından tanış etmək üçün keçiriləcək tədbirin mövzusu, dəvət olunacaq qonaqlar, onların çıxışları qabaqcadan dəqiqləşdirilməli, müzakirə olunacaq məsələlər və iştirakçılar əvvəlcədən müəyyənləşdirilməli, mütəxəssislərin konkret mövzularda çıxışları nəzərdə tutulmalı və mövzu ilə bağlı suallar hazırlanmalıdır. Dəyirmi masa keçirilərkən *"Ömər Faiq Nemanzadə – 150"* adlı kitab sərgisinin nümayişi, elektron məlumat bazasının təqdimatı da tədbir iştirakçıları üçün maraqlı ola bilər. Tədbirə daha çox istifadəçi cəlb etmək üçün dəyirmi masanın keçirilməsi haqqında anonsun kitabxananın saytında verilməsi və sosial şəbəkələrdə paylaşılması məqsədəuyğun hesab edilir.

Ümumiyyətlə, hər hansı bir kütləvi tədbirin təşkili kitabxanaçıdan kreativlik tələb edir. Odur ki, əlamətdar və tarixi günlər, görkəmli şəxslərin yubileyləri münasibətilə keçirilən tədbirlərin daha rəngarəng və kreativ olması üçün kitabxanaçı hər zaman yeni iş üsulları və formaları axtarmalıdır.

# ƏLAVƏLƏR

***Əlavə 1***

## Ömər Faiqə aid edilən imzalar və təxəllüslər

- Ömer Neman Ağazade –*Tərcüman, 1895*
- Müəllim Nemanzadə – *Tərcüman, 1898*
- Nemanzadə – *Şərqi Rus, 1904*
- Göy altında, yer üstünde – kara hayrani – *Molla Nəsrəddin, 1906*
- Bir Qarslı – *İrşad,* 1906
- Bir İranlı – *İrşad, 1906*
- Bir Cavan – *İrşad,1906 – 1907*
- Naməyus – *İrşad, 1906 – 1907*
- Ömər Əlioğlu – *İrşad, 1907*
- Ümid – *İrşad, 1907*
- Ümidvar – *Molla Nəsrəddin*
- Ala Qarğa – *Molla Nəsrəddin*
- Bazar Cücəsi – *Molla Nəsrəddin*
- Vızvıza – *Molla Nəsrəddin*
- Geybi – *Molla Nəsrəddin*
- Cəhrəçi xala – *Molla Nəsrəddin*
- Çoban – *Molla Nəsrəddin*
- Deli – *Molla Nəsrəddin*
- Dərdli – *Molla Nəsrəddin*
- Dərdimənd – *Molla Nəsrəddin*
- Dərdmənd – *Molla Nəsrəddin*
- Doşabüddevle – *Molla Nəsrəddin*
- Mozalan – *Molla Nəsrəddin, 1908*
- Heyrani – *Molla Nəsrəddin, 1909*
- Hətəkçi –*Molla Nəsrəddin*

- Əgrəbüddəvlə – *Molla Nəsrəddin*
- Lağlağı – *Molla Nəsrəddin*
- Məşrutəçi – *Molla Nəsrəddin, 1909*
- Molla Qulu – *Molla Nəsrəddin*
- Molla Nəsrəddin – *Molla Nəsrəddin*
- Mömin – *Molla Nəsrəddin*
- N. – *Həyat, 1906, Yeni İqbal, 1916*
- Ümidvar – *İrşad, Azərbaycan*
- İynə – *Yeni Fikir, 1924 – 1926*
- Ömər Faiq – *Açıq Söz, 1916, Yeni Yol, 1923*
- Faiq – *İqbal, 1913, Kommunist, 1921*

*Əlavə 2*

## Ömər Faiqin qəzet ve jurnallardakı yazıları

### 1898

- Müəllim Nemanzadə, “Şəki’den”, Tərcüman, No: 22, 5 İyul 1898.

### 1900

- Ö. Nemanzadə, “Ahıska’dan”, Tərcüman, 7 Yanvar 1900.

### 1903

- Faiq Nemanzadə, “Dərdimiz ve Dərmanımız”, Şərqi Rus, No: 3-5, 4-11 Aprel 1903.
- Faiq Nemanzadə, “Ahıska -2”, Şərqi Rus, No: 4, 6 Aprel 1903.
- F. Nemanzadə, “Şəhər Mektubu –Xütbə ve Cümə Namazı”, Şərqi Rus, No: 17, 9 May 1903.

### 1904

- Nemanzadə, “Ahıska-Mətbuat-Şərqi Rus Müxbirleri”, Şərqi Rus, No:32, 19 Mart 1904.
- Nemanzadə, “Dilimiz ve İmlamız”, Şərqi Rus, No: 40, 7 Aprel 1904.
- Nemanzadə, “Cavabı”, Şərqi Rus, No: 42, 11 Aprel 1904.
- Nemanzadə, “İbkay-ı Hissiyat”, Şərqi Rus, No: 43, 14 Aprel 1904.
- Nemanzadə, “Şəhər Mektubu-Şeytan Bazarından Keçerken”, Şərqi Rus, No: 45, 18 Aprel 1904.
- Ö. Faiq Nemanzadə, “Nəyə görə Haqqımızı İstəmirik”, Şərqi Rus, No: 52, 5 May 1904.
- Ö. Faiq Nemanzadə, “Əhmed Bəy Ağayev”, Şərqi Rus, No: 60, 23 May 1904.

- Nemanzadə, “Son Bir İki Söz-Mükallid Əfəndi”, Şərqi Rus, No: 63, 30 May 1904.
- Nemanzadə, “G-K Hərfləri”, Şərqi Rus, No: 78, 19 İyun 1904.
- Nemanzadə, “Qəbirdən Xortlayan Adam”, Şərqi Rus, No: 80- 81, 21-22 İyun 1904.
- Nemanzadə, “Tiflisdə Müsəlman Müəllimlərinin Müharibəsi ve Köhne Usulu Cədid Təlimlərimizin Nəticəsi”, Şərqi Rus, No: 84, 25 İyun 1904.
- Nemanzadə, “Günah Kimdədir?”, Şərqi Rus, No: 88-91, 29 İyun, 3 İyul 1904.
- Nemanzadə, “Cavan Bir Millətpərəstin Vəfatı”, Şərqi Rus, No: 112, 24 İyul 1904.
- Dərdli, “Kənd Mektubları -1, 2, 3”, Şərqi Rus, No: 122-125-134, 3-6-15 Avgust 1904.
- Nemanzadə, “Biz de Vaxta Görə Çalışaq”, Şərqi Rus, No: 147-148-152, 28-29 Avgust, 2 Sentyabr 1904.
- Nemanzadə, “Dünya Mömin Üçün Zindandır”, Şərqi Rus, No: 240, 4 Dekabr 1904.
- Nemanzadə, “Bir Müqəddimə: Bütpərəstlik yoxsa, Müsəlmanlıq?”, Şərqi Rus, No: 249, 14 Dekabr 1904.
- İmzasız [Nemanzadə], “Bütpərəstlik yoxsa, Müsəlmanlıq?”, Şərqi Rus, No: 250, 15 Dekabr 1904.
- Nemanzadə, “Tiflis Xeyriyyə Cəmiyyəti Nə Haldadır”, Şərqi Rus, No: 25, 19 Dekabr 1904.
- F. Nemanzadə, “İhtilaf-ı Ümmeti Rahmeten”, Şərqi Rus, No: 259, 25 Dekabr 1904.
- Nemanzadə, “Mədəniyyət yoxsa, Əxlaqsızlıq?”, Şərqi Rus, No: 262, 30 Dekabr 1904.

**1905**

- F. Nemanzadə, “Ağacı Qurd İçinden Yeyər”, Həyat, No: 45, 7 Avgust 1905.

**1906**

- Ümidvar, “Ümidvaram ki..”, No: 46, Fevral 1906.
- Ümidvar, “Bəsdir Bu Qədər”, İrşad, No: 73, 21 Mart 1906.
- Ümidvar, “Sülh Necə Olur”, İrşad, No: 76, 24 Mart 1906.
- Ümidvar, “Ruhaniyə idarələrimiz Ne vaxt Düzelecek”, İrşad, No: 80, 29 Mart 1906.
- Ümidvar, “Ruhaniyyə idarələrimiz Ne vaxt Düzelecek”, İrşad, No: 85, Aprel 1906.
- Ümidvar, “Müəllimlərimiz nəyə görə Bakıya qaçır? İrşad, No: 87-88, 11-13 Aprel 1906.
- Ümidvar, “Ne Vaxta Qədər?”, İrşad, No: 91, 17 Aprel 1906.
- Ümidvar, “Ümidvaram”, İrşad, No: 102, 1 May 1906.
- Ümidvar, “Cavab”, İrşad, No: 104-105, 4-5 May 1906.
- Nameyus, “Qafqaz Xəbərləri”, İrşad, No: 106, 7 May 1906.
- Ümidvar, “Bu Günlər ve Bizim Rəhbərlər”, İrşad, No: 113, 15 May 1906.
- Ümidvar, “Günah sizdə və bizdə”, İrşad, No: 121, 24 May 1906.
- Nameyus, “Ruhaniyyə İdarəsi barədə” İrşad, No: 124, 26 May 1906.
- Ümidvar, “Xüsusi Müxbirlərimizdən Gələn Teleqraf”, İrşad, No: 147, 23 İyun 1906.
- Ümidvar, “Tiflis-22 İyun Səhər Saat Səkkiz”, İrşad, No: 149, 26 İyun 1906.
- Xəfiyyəbaşı, “Statistik”, Molla Nəsrəddin, No: 15, 14 İyul 1906.
- Bir Cavan, “Nə Etməliyik?”, İrşad, No: 183, 4 Avgust 1906.
- Bir İranlı, “Hüriyyət Bayramı”, İrşad, No: 191, 14 Avgust 1906.

- Qeyret Mətbəəsının Müdiri Ö. Faiq Nemanzadə, “Dəvət ve Təvəqqe İrşad, No: 209, 6 Sentyabr 1906.
- Ümid, “Müqəddəsin Cənazəsi”, İrşad, No: 214, 12 Sentyabr 1906.
- Ümid, “Ağacı İçinden Qurt Yeyer”, İrşad, No: 215, 13 Sentyabr 1906.
- Nemanzadə, “Xilasımız nədir?”, İrşad, No: 237, 9 Oktyabr 1906.
- Nemanzadə, “Məzlum ən Büyük Zalımdır”, İrşad, No: 245, 18 Oktyabr 1906.
- Nemanzadə, “İran’a dair – Alınan Azadlığı necə Saxlamalı”, İrşad, No: 269, 22 Noyabr 1906.
- Nemanzadə, “Ruhaniyyə İdrələri Məktəbləri”, İrşad, No: 274-276, 29 Noyabr, 1 Dekabr 1906.
- Nemanzadə, “Milletpərəstlik Zamanıdır”, İrşad, No: 282, 10 Dekabr 1906.
- Nemanzadə, “Deryadan Damla”, İrşad, No: 286, 15 Dekabr 1906.
- Ümidvar, “Çinovliklərimiz”, İrşad, No: 293, 26 Dekabr 1906.

**1907**

- Faiq Nemanzadə, “Çarə – Tərəqqi etməyimiz”, İrşad, No: 27, 16 Fevral 1907.
- Ömər Alioğlu, “Hicrət Problemi”, İrşad, No: 44, 14 Mart 1907.
- Ümidvar, “Cemaat Darülfünunu”, İrşad, No: 54, 28 Mart 1907.
- Mozalan, “Həqiqət”, Molla Nəsrəddin, No: 13, 31 Mart 1907.
- Köylü, “Etiraz, Ahıskadan”, İrşad, No: 81, 3 Maya 1907.
- Lağlağı, “Erməni ve Müsəlman Arvadları ”, Molla Nəsrəddin, No: 20, 19 May 1907.
- Cəhrəçi xala, “Məktub”, Molla Nəsrəddin, No: 21, 26 May 1907.
- Molla Nəsrəddin, “Qafkas Şeyxülislamına İki dənə [âdet] Məktub”, Molla Nəsrəddin, No: 22, 2 İyun1907.

- Ömər Faiq Nemanzadə, “Düşünürəm ki”, İrşad, No: 113, 17 İyun 1907.
- Molla Nəsrəddin, “Hicab Məsələsi”, Molla Nəsrəddin, No: 23, 25 İyun 1907.
- Molla Nəsrəddin, “Bir Neçə Günlüyə – Zövcə Məsələsi”, Molla Nəsrəddin, No: 23, 25 İyun 1907.
- Ömər Faiq Nemanzadə, “Açıq Sözlər”, İrşad, No: 104, 5 İyul 1907.
- Ömər Faiq Nemanzadə, “Molla Nəsrəddin Bağlandı”, İrşad, 13 İyul 1907, No: 110. (Bu məqalə “Beyanü’l-Haqq” qəzetinin No: 186, 28 İyun 1907 tarixli nömrəsində ve “Burah-ı Tərəqqi” qəzetinin No: 119, 20 Yanvar 1907 tarixli nömrəsində “Molla Nəsrəddin Tevfik Olungen” başlığıyla təkrar olaraq dərc olunmuşdur.)

**1908**

- Mozalan, “Allaha Rüşvət”, Molla Nəsrəddin, No: 8, 24 Fevral 1908.
- Lağlağı, “Ziyarət”, Molla Nəsrəddin, No: 17, 28 Aprel 1908.
- İmza: Sultan Əbdülhəmid, “Sultanın Kağızı”, Molla Nəsrəddin, No: 19, 12 May 1908.
- Nemanzadə, “Mətbuat – Rüstəm ve Zöhrab”, İrşad, No: 79-80, 3-4 İyun 1908.
- Lağlağı, “Ərəb İzzət Qaçmayıb”, Molla Nəsrəddin, Molla Nəsrəddin, No: 50,14 Dekabr 1908.

**1909**

- Faiq Nemanzadə, “Yazımız, Dilimiz, ‘İkinci İlimiz”, Tərəqqi, No: 41, 20 Fevral 1909.
- Ö. F. Numanzadə, “Yazımız, Dilimiz, ‘İkinci İlimiz”, Tərəqqi, No: 42, 22 Fevral 1909.
- Nemanzadə, “Özür”, Tərəqqi, No: 42, 22 Fevral 1909.

- Ö. F. Nemanzadə, “Yazımız, Dilimiz, İkinci İlimiz”, Tərəqqi, No: 44, 26 Fevral 1909.
- Nemanzadə, “Yazımız, Dilimiz, ‘İkinci İlimiz”, Tərəqqi, No: 52, 12 Mart 1909.
- Ö. F. Nemanzadə, “Yazımız, Dilimiz, İkinci İlimiz”, Tərəqqi, No: 53, 13 Mart 1909.
- Faiq Nemanzadə, “Yazımız, Dilimiz, ‘İkinci İl’miz”, Tərəqqi, No: 55, 16 Mart 1909.
- Lağlağı, “Xanımlar”, Molla Nəsrəddin, No: 13, 29 Mart 1909.
- Molla Nəsrəddin, “Bizim Şeyxin Qırx səkkiz Arvadı Var”, Molla Nəsrəddin, No: 34, 23 Avgust1909.
- Ümid, “Belədirmi?”, İrşad, No: 209, 6 Sentyabr 1909.

**1911**

- Ömər Faiq Nemanzadə, “Təşəkkür”, Molla Nəsrəddin, No: 4, 25 Yanvar 1911.
- Meşrutaçı, “Ey İran”, Molla Nəsrəddin, No: 21, 5 İyun 1911.

**1915**

- Ömər Faiq Nemanzadə, “Təcili Kömək Lazımdır”, İqbal, No: 842, 19 Yanvar 1915.
- Ömər Faiq Nemanzadə, “Bir Loxma Etmək”, İqbal, No: 844, 21 Yanvar 1915.
- Ömər Faiq, “Patriotluq Zamanıdır”, İqbal, No: 854, 27 Yanvar 1915.
- Ömər Faiq, “İmtahan”, İqbal, No: 894, 24 Mart 1915.
- Ömər Faiq, “Köməkləşək” İqbal, No: 915, 15 Aprel 1915.
- Ömər Faiq, “Bakı Cəmiyyəti Xeyriyyəsinə”, İqbal, No: 916, 19 Aprel 1915.
- Ömər Faiq, “Nə Yazım?”, Yeni İqbal, No: 16, 15 May 1915.

- Ömər Faiq, “Eşq və Məhəbbət”, Yeni İqbal, No: 57, 2 İyul 1915. (Bu yazı “Tərcüman” qəzetinin No: 153, 20 İyun 1915 tarixli nömrəsində “Eşq və Məhəbbət” başlığıyla təkrar olaraq dərc olunmuşdur.)
- Ömər Faiq, “Çox Utandıq”, Yeni İqbal, No: 58, 3 İyul 1915.
- Ömər Faiq, “Uzun Günlərdə Oruc”, Yeni İqbal, No: 70, 17 İyul 1915.
- Ömər Faiq, “Tiflisdə Yetimlər Evi”, Yeni İqbal, No: 75, 27 İyul 1915.
- Ömər Faiq, “Fürsət Az, Ehtiyac Böyük”, Açıq Söz, No: 1, 2 Oktyabr 1915.
- Ömər Faiq, “Qurban Bayramı”, Açıq Söz, No: 5, 7 Oktyabr 1915.
- Ömər Faiq, “Milli Məsələlərimizin Vaxtıdırmı?”, Açıq Söz, No: 31-32-44-55, 10-11-25 Noyabr, 6 Dekabr 1915.
- Ömər Faiq, “Böyük Ehtiyac İçindəyik – Cəmiyyətimizin Diqqətinə”, Açıq Söz, No: 61,14 Dekabr1915.

**1916**

- Ömər Faiq, “Xahiç edirəm Açıq Söz, No: 76, 3 Yanvar 1916.
- Ömər Faiq, “İşığımız Sönməyəcək”, Açıq Söz, No: 90, 20 Yanvar 1916.
- Ömər Faiq, “Nə Gözləyirik?”, Açıq Söz, No: 110, 12 Fevral 1916.
- Ömər Faiq, “Haşim Bəy Üçün”, Açıq Söz, No: 113, 17 Fevral 1916.
- Ömər Faiq, “Diləklərimiz”, Açıq Söz, No: 144, 28 Mart 1916.
- Ömər Faiq, “Gülsüm (Kiçik Hekayə)”, Açıq Söz, No: 182, 11 May 1916.
- Ömər Faiq, “Ölümdən də Betər” Açıq Söz, No: 346, 7 Dekabr 1916.

**1917**

- Ömər Faiq, “Gürcü Siyasətçiləri”, Açıq Söz, No: 380, 18 Yanvar 1917.
- Ömər Faiq Nemanzadə, “Mən Kiməm?”, Qardaş Köməyi Jurnalı, May 1917, Bakı.

**1919**

- Ömər Faiq, “Ömer Faiq Əfəndinin Ruhadzenin Teleqramına Cavabı”, Azərbaycan, No: 132, 9 Mart 1919.
- Ümidvar, “Alçaq Siyasət”, Azərbaycan, No: 164, 23 Aprel 1919.
- Ümidvar, “İşlərimizdə Hərcmərclik Azərbaycan, No: 220, 9 İyun 1919.
- Ümidvar, “Aldanmayın”, Azərbaycan, No: 209, 20 İyun 1919.
- Ömər Faiq, “Milliləşmək”, Azərbaycan, No: 327-328, 21-24 Noyabr 1919.

**1920**

- Ümidvar, “Hasan Əminin Şikayəti”, Zəhməetkeşlerin Gözü Jurnalı, No: 1, 3 İyul 1920.

# Ədəbiyyat


1. Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 3 oktyabr 2022-ci il //Azərbaycan.- 2022.- 4 oktyabr.- S.2. URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2022/oktyabr/817829.htm*

***

2. Seçilmiş əsərləri /Ömər Faiq Nemanzadə; tərt. ed., ön sözün və izahların müəl. Ş.Qurbanov.- Bakı: Şərq-Qərb, 2006.- 352 s.
   URL: *http://web.anl.az/el/n/nof_se.pdf*
3. Əsərləri /Ömər Faiq Nemanzadə; tərt. ed. Ş.Qurbanov, S.Rzayev; red. K.Məmmədov.- Bakı: Yazıçı, 1983.- 152 s.
   URL: *http://web.anl.az/el/Kitab/177253.pdf*
4. Xatirələrim /Ömər Faiq Nemanzadə; red. K.Məmmədov; hazırlayan, müqəddimə və şərhlərin müəl. Ş.Qurbanov.- Bakı: Gənclik, 1985.- 128 s.
   URL: *http://web.anl.az/el/Kitab/2020/10/Azf-185596.pdf*
5. Xatirələrim /Ömər Faiq Nemanzadə; red. D.Əhməd; lay. rəhbəri Ş.Sadiq; naşir M. Xan; mətn tərtibatı P.Fazilqızı; dizayn və qrafika T.Fərzi; rəssam V.Səftərov.- [Bakı]: XAN, [2014].- 166, [2] s.
   URL: *http://web.anl.az/el/2017-xidmet/2014-2225.pdf*
6. Xatirələrim /Ömər Faiq Nemanzadə; red. D.Əhməd; lay. rəhb. Ş.Sadiq; naşir M.Xan; mətn tərtibatı P.Fazilqızı; dizayn və qrafika T.Fərzi; rəssam V.Səftərov.- [Bakı]: XAN, [2015].- 166, [1] s.
   URL: *http://web.anl.az/el/kitab2022/10/Ar2015-2441.pdf*

***

**7.** Camalov, K. Repressiya qurbanlarının maarifçilik ideyaları: [Monoqrafiya] /Kamal Camalov; elmi red. V.Talıbov; red. S.Camalbəyli.- Bakı: [ADPU], 2022.- 305 s.

**8.** “Kaspi” - maarifçilik meydanı: kitab Azərbaycan Respublikasının müstəqilliyinin 25 illiyinə və “Kaspi” qəzetinin 135 illik yubileyinə həsr olunur /“Kaspi nəşrləri” layihəsinin rəhbəri, kitabın ideya və ön sözün müəl. S.Vəliyeva; red. F.Hüseyn.- Bakı: [Zərdabi LTD], 2016.- 652 s. URL: http://web.anl.az/el/Kitab/2017/2016-2105.pdf

***

**9.** Babayeva, G. Ömər Faiq Nemanzadə və “Molla Nəsrəddin” jurnalı /Gülbəniz Babayeva //525-ci qəzet.- 2022.- 14 iyul.- S.12. URL: http://www.anl.az/down/meqale/525/2022/iyul/806186.htm

**10.** Ələkbərli, F. Ömər Faiq Nemanzadənin milli-dini maarifçilik və ictimai-siyasi görüşləri /Faiq Ələkbərli //Əmək və sosial münasibətlər: Elmi-praktiki jurnal.- 2021.- №1(15).- S.4-16. URL:http://www.anl.az/down/meqale/emek_sosial_mun/2021/01/765615(meqale).pdf

**11.** Ələkbərli, F. Ömər Faiq Nemanzadənin yaradıcılığında milli maarifçilik: türkçülük və azərbaycançılıq /Faiq Ələkbərli //Türküstan.- 2020.- 13-19 oktyabr.- S.10. URL:http://www.anl.az/down/meqale/turkustan/2020/oktyabr/723123(meqale).pdf

**12.** Fərəcov, S. Mədəni dirçəliş və istiqlal yolunun mübarizi: “Doğma dili, doğma ədəbiyyatı olmayan millət öz varlığından danışmağa utanmalıdır”, Ömər Faiq Nemanzadə – 150 /Savalan Fərəcov //Mədəniyyət.- 2022.- 7 oktyabr.- S.7. URL:http://www.anl.az/down/meqale/medeniyyet/2022/oktyabr/817740(meqale).pdf

13. Həşimzadə, N. Ömər Faiqin susmayan “həyacan siqnalları” /Nicat Həşimzadə //525-ci qəzet.- 2021.- 12 oktyabr.- S.14. URL:*http://www.anl.az/down/meqale/525/2021/oktyabr/760277.htm*

14. Hüseynova,Ü. Tarixin ibrət səhifələri: Nə Etməliyik? /Ülkər Hüseynova //525-ci qəzet.- 2021.- 26 iyun.- S.10-11. URL: *http://www.anl.az/down/meqale/525/2021/iyun/749664.htm*

15. İsmayıl. “Şərqi-rus”un misilsiz xidmətləri olub: Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Ə.Nəzmi, M.S.Ordubadi kimi dövrün böyük publisistləri məhz bu nəşrdə xalqa sözünü çatdırıb /İsmayıl //Şərq.- 2020.- 8 fevral.- S.11. URL:*http://www.anl.az/down/meqale/sherq/2020/fevral/702155.JPG*

16. Qocayev, İ. Ömər Faiq Nemanzadə dahi şəxsiyyətdir: Maarifçi ziyalımızın türklük və islam dininin mahiyyətinin yenidən dərki uğrunda apardığı mücadiləni mənimsəməliyik /İsmayıl Qocayev //Şərq.- 2022.- 5 oktyabr.- S.6. URL:*http://www.anl.az/down/meqale/sherq/2022/oktyabr/817460.htm*

17. Quliyeva, S. Ömər Faiq Nemanzadə yaradıcılığında felyeton /Samirə Quliyeva // Elmi əsərlər /Bakı Qızlar Universiteti.- 2020.- C.11.-№04.-S.19-25. URL:*http://www.anl.az/down/meqale/elmi_eser_bqu/2020/04/808930(meqale).pdf*

18. Səlimov, Ş. Ömər Faiq Nemanzadənin naməlum məktubları /Şövkət Səlimov //Mədəniyyət: jurnal.- 2020.- iyul-avqust.- S.6-11. URL:*http://www.anl.az/down/meqale/medeni_az/2020/iyul-avqust/758178(meqale).pdf*

***

**19.** Рзаев, С. Литературно-публицистическая деятельность Омара Фаика Неман-заде: автореф. дис. на соис. канд. филол. наук: 10.01.03 /Сахиб Рзаев; Академия Наук Азерб., Ин-т Литературы им. Низами.- Баку: 1973.- 38 с.

***

**20.** В Национальный музей истории переданы материалы, посвященные одному из основателей журнала "Молла Насреддин" //Ежедневные новости.- 2022. - 2 сентября. - С.10.
URL:*http://www.anl.az/down/meqale/ejednevniye_novosti/2022/sentyabr/811707.htm*

***

**21.** https://www.millikitabxana.az/
**22.** https://omarfaig.info/

# Mündəricat

Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..............3
Tərtibçidən...........................................................................5
Ömər Faiq Nemanzadənin həyat və fəaliyyəti haqqında.....................6
Ömər Faiq Nemanzadə irsinin kitabxanalarda təbliği........................12
Əlavələr...........................................................................21
Ədəbiyyat...........................................................................31

